
| Kationlar: | 1 Litr suda | Mq | Mq-ekv. | Mq-ekv.% |
|---|---|---|---|---|
| | Litium | Li | 0.10 | |
| | Ammonium | $NH_4$ | 0.10 | |
| | Kalium | K | 8.8 | 0.2 0.7 |
| | Natrium | NA | 192.7 | 8.4 28.0 |
| | Maqnezium | Mg | 53.1 | 4.4 14.7 |
| | Kalsium | Ca | 340.7 | 17.0 56.7 |
| | Stronsium | Sr | 1.4 | |
| | Dəmir | Fe | 0.08 | |
| | Alüminium | Al | - | |
| | Kadmium | Cd | - | |
| | Manqan | Mn | 0.3 | |
| | Mis | Cu | - | |
| | Kobalt | Co | - | |
| | Nikel | Ni | - | |
| | Qurğuşun | Pb | - | |
| | Sink | Zn | - | |
| | Civə | Hg | - | |
| | Xrom | Cr | - | |
| | Mərgümüş | As | - | |
| | Gümüş | Ag | - | |
| | Selen | Se | - | |
| Kationların cəmi: | | | 597.28 | 30 100.0 |
| Anionlar: | Flor | F | 2.1 | |
| | Xlor | Cl | 85.5 | 2.4 8.0 |
| | Brom | Br | <0.5 | |
| | Yod | İ | <0.1 | |
| | Sulfat | $SO_4$ | 219.7 | 4.6 15.3 |
| | Hidrokarbonat | $HCO_3$ | 1403.0 | 23.0 76.7 |
| | Karbonat | $CO_3$ | <0.1 | |
| | Fosfat | $PO_4$ | <0.01 | |
| | Nitrit | $NO_2$ | <0.01 | |
| | Nitrat | $NO_3$ | 0.85 | |

---

**(111) 012/01**
**(151) 25.12.2013**
**(210) C 2011 0003**
**(220) 18.07.2011**
**(181) 18.07.2021**
**(730) Naxçıvan MR Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Naxçıvan MR, Naxçıvan şəhəri, Azərbaycan küç., 29 (AZ)**
**(540)**

# Duzdağ

**(511) 30** - duz.
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Duzdağ 1927-ci ildə “Naxçıvan Filiz” idarəsi kimi. 2010-cu ildən isə “Naxçıvan duz” istehsalı MMC kimi fəaliyyətə başlayıb. “Duzdağ” yatağı Naxçıvan MR Kəngərli rayonu, Böyükdüz kəndi ərazisində və Naxçıvan şəhərindən 12 km şimal-qərbdə yerləşir.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Duz qatının qalığı 8,2 metr; tərkibi isə:
NaCl 98,4%
CaCl 0,04%
MqCl 0,06%-dir.
Duz yatağı ən qədim yataqlardan biridir və xüsusi çəkisi 2,13 q/sm$^3$-dir, duz yatağının tərkibi NaCl və hallit mineralları ilə zəngindir. Yatağın sahəsi 6 km$^2$-dir.

---

**(111) 013/01**
**(151) 02.04.2014**
**(210) C 2011 0004**
**(220) 18.07.2011**
**(181) 18.07.2021**
**(730) Naxçıvan MR Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Naxçıvan MR, Naxçıvan şəhəri, Azərbaycan küç., 29 (AZ)**
**(540)**

# Duzdağ

**(511) 44** - duz.
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Duzdağ 1927-ci ildə “Naxçıvan Filiz” idarəsi kimi. 2010-cu ildən isə “Naxçıvan duz” istehsalı MMC kimi fəaliyyətə başlayıb. “Duzdağ” yatağı Naxçıvan MR Kəngərli rayonu, Böyükdüz kəndi ərazisində və Naxçıvan şəhərindən 12 km şimal-qərbdə yerləşir. ”Duzdağ” yatağı 25 milyon il bundan əvvəl dəniz şəraitindən yarandığı güman edilir. Qədim duz mağaralarının sirri isə XX əsrin 60-cı illərinin sonundan başlayaraq açılmağa başlayıb. Duzdağın qədim şaxtaları 1967-ci ildə təsadüfi bir uçqun zamanı və 1976-cı ildə burada aparılan qazma işləri zamanı aşkara çıxarılıb.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Naxçıvan MR Fizioterapiya xəstəxanası aşağıdakı əsas müalicəvi təsiredici parametrlərə malikdir.

1. Yerüstü iqlim:
a) Ərazinin dəniz səviyyəsinin yüksəkliyi – 950 m
b) Orta illik temperatur – 12-14 $^{O}$C
Yanvarda - 5-10 $^{O}$C, iyunda- 35-40 $^{O}$C
c) Nisbi rütubəti - 40-45 %
ç) İllik yağıntının miqdarı – 200-300 mm
d) Atmosfer təziyigi – 1020 mm.c.st
e) Günəşli günlərin sayı - 260-280
2. Yeraltı şöbənin mikroiqlimi:
a) Dəniz səviyyəsindən yüksəkliyi – 1173 m
b) Temperatur – 19-20 $^{O}$C
c) Atmosfer təzyigi – 682 mmşcşst
ç) Nisbi rütubət – 23-35 %
d) hava sürəti – 0-0,1 m/s
e) Yüksək dispersli $Na^{+}$, $Cl^{+}$ ionları
xəstə olmayanda – 17,5 mq/m$^3$
xəstə olanda – 12,5 mq/m$^3$
ə) Oksigen – 20 %
f) Küy – 15-20 D$^{B}$

---

**(111) 014/01**
**(151) 29.05.2015**
**(210) C 2015 0002**
**(220) 31.03.2015**
**(181) 31.03.2025**
**(730) Muradov Vidadi Aydın oğlu, Bakı şəh., Nərimanov rayonu, Şəmsi Rəhimov küçəsi 2 (AZ)**
**(540)**



**(511) 27** - xalçalar.
**(591)** ağ, göy, narıncı, açıq qəhvəyi, qara
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Azərbaycanın qədim tarixi torpağı olan İrevan şəhəri Ağrı-Vadisinin Şimal kənarında, Zəngi çayının sahilində yerləşir. Kanakir, Çorbax, Qalalı və s. kimi yaşayış məntəqələrinin yaxınlığında yerləşir.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Bu bədii kompozisiya, elementlərin bu qaydada düzülüşü və nisbəti, hətta kəmiyyəti, xüsusilə bütöv və yarımçıq medalyonların say nisbəti, rəng seçimi, məhz “İrəvan şəhəri” xalaçası üçün səciyyəvidir.
“İrəvan şəhər” xalçası – coğrafi göstərici kimi (əmtəənin mənşə yerinin adı) mühafizə olunan, təbii boyalardan, təbii ipliklərdən istifadə edilməklə, əllə toxunan zəngin rəng palitrasına malik olan xalçadır.
“İrəvan şəhər xalçası”nın ümumi təsviri:
Ölçüsü 228x95-dir. Xalçanın yuxarı hissəsində ara sahədəki qırmızı yerlikli medalyonun içərisində həyat, yenilik, dirilik rəmzi olan “ağac” motivinin aşağısında "h.1271" tarixi vardır. Xalçanın tünd-şabalıdı yerlikli ara sahəsində on səkkiz bütöv və on dörd yarımçıq altıbucaqlı medalyon yerləşdirilmişdir. Medalyonlar qırmızı, açıq yaşıl, sarı, ağ, sürməyi yerlikdə tərtib edilmişdir. Medalyonların kənarları sürməyi, qırmızı, sarı, ağ, yaşıl, açıq-şabalıdı rənglərlə işlənmişdir. Bu medalyonların içərisində də “ağac” motivləri təkrarlanır. "Ağac" motivləri qırmızı yerlikdə sarı, yaşıl, ağ, sürməyi; yaşıl yerlikdə qırmızı, sarı, ağ; ağ yerlikdə yaşıl, sürməyi, qırmızı; sarı yerlikdə sürməyi, qırmızı, yaşıl rənglərlə işlənmişdir. Bəzi toxucular bu motivləri “budaqbaşı” da adlandırırlar. Xalçanın sağında və solunda, aşağı və yuxarı hissəsindəki yarımçıq medalyonlar ara sahənin kompozisiyasını tamamlayır. Xalçanın haşiyəsi kiçikölçülü, altıbucaqlı elementlərlə bəzədilmişdir. Ara sahədəki altıbucaqlı elementlərin rəngi haşiyə hissəsindəki elementlərdə də təkrarlanır. Haşiyədəki medalyonların içərisində təbii dövriyyəni, fəsillərin ardıcıllığını, həyatın axarını ifadə edən “çarx” motivləri ilə işlənmişdir. Bu motivlər qırmızı yerlikdə ağ, sarı; yaşıl yerlikdə qırmızı, ağ, sarı; göy yerlikdə sarı, qırmızı rənglərlə tərtib edilmişdir. Bala haşiyə sürməyi, kərpici rəngli “mollabaşı”larla tərtib edilmişdir. Haşiyənin kənarları daxildən sarı, qırmızı, xaricdən isə ağ, qırmızı rənglərlə işlənmiş ağ rəngli qırıq-qırıq xətlərlə əhatə olunub. Xalçadakı isti və soyuq rənglər bir-biri ilə ənənəvi qanunauyğunluqla və yüksək peşəkarlıqla uzlaşdırılaraq diqqəti cəlb edən bir görünüş yaradılmışdır.

---

**(111) 015/01**
**(151) 29.05.2015**
**(210) C 2015 0003**
**(220) 31.03.2015**
**(181) 31.03.2025**
**(730) Muradov Vidadi Aydın oğlu, Bakı şəh., Nərimanov rayonu, Şəmsi Rəhimov küçəsi 2 (AZ)**
**(540)**



**(511) 27** - xalçalar.
**(591)** ağ, mavi, qara, mor, narıncı, qırmızı, bey, sarı, açıq-qəhvəyi, göy
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
İrəvandan 13 km şimal-şərqdə yerləşən Əştərək qədim oğuz-türk torpağı kimi tanınır.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Bu bədii kompozisiya, elementlərin bu qaydada düzülüşü və nisbəti, hətta kəmiyyəti, xüsusilə bütöv və yarımçıq medalyonların say nisbəti, rəng seçimi məhz "Əştərək xalçası" üçün səciyyəvidir. Xalça sadə kompozisiyaya malik olsa da ümumi görünüşü olduqca orijinaldır və bu kompozisiyalı xalçalara demək olar ki, rast gəlinməyib.
"Əştərək xalçası" - coğrafi göstərici kimi (əmtəənin mənşə yerinin adı) mühafizə olunan, təbii boyalardan, həmin ərazidə əldə edilən ipliklərlərdən istifadə edilməklə, əllə toxunan zəngin rəng palitrasına malik olan xalçadır.
"Əştərək xalçası" – təbii yundan və təbii boyalardan istifadə edilərək toxunmuşdur.
**"Əştərək xalçası"nın ümumi təsviri:**
h.1240-cı ildə (1819) Əştərək mahalında toxunmuşdur. Ölçüsü 282x142-dir. Xalçanın yuxarı hissəsində, ara sahənin sağında küncə yaxın hissədə h. 1240 (tarixi vardır). Sürməyi yerlikli xalçanın ara sahəsində bir böyük ölçülü, qırmızı yerlikli göl yerləşdirilmişdir. Göl hər tərəfdən qarmaqlarla əhatə olunub, qarmaqların kənarları ağ "siçandişi"lərlə işlənmişdir. Gölün içərisində yaşıl, ağ, sarı, narıncı, sürməyi rənglərlə tərtib edilmiş rombvari medalyon yerləşdirilmişdir. Rombvari element sarı rəngli "su"lar və qarmaqlarla əhatə olunub. Ara sahənin boşluqlarında, gölün yuxarı və aşağı hissələrində eyni formalı kiçik ölçülü göllər təsvir edilmişdir. Digər hissələrdəki boşluqlar xaçabənzər (dördünsür), qarmaqlı, "S" işarəsinə bənzər şəbəkə düzülüşü ilə tərtiblənmiş, dördbucaqlı, rombvari elementlərlə bəzədilmişdir. Ara sahənin yuxarı hissəsində sağda bir, mərkəzdən bir qədər aşağı hissədə isə üfüqi istiqamətdə düzülmüş qırmızı, sarı rənglərlə işlənmiş stilləşmiş quş təsvirləri vardır. Xalçanın şəkəri yerlikli ara haşiyəsi "zülfələm" adlandırılan naxışlarla bəzədilmişdir. Bu naxışlar yaşıl, mavi, göy, narıncı, tünd-qəhvəyi, bənövşəyi, tünd-qırmızı rənglərlə tərtib edilmişdir. Ara haşiyə hər iki tərəfdən içərisində yaşıl, qırmızı rəngli "mollabaşı" motivləri ilə işlənmişdir. "Mollabaşı" motivlərinin kənarları ağ rəngli "siçandişi" lərlə tamamlanır. Xalçanın ara haşiyəsinin kənarları qara rəngli "su"larla, xarici bala haşiyənin kənarları isə sağ və soldan qırmızı, mavi, qəhvəyi , sarı, narıncı, göy, sürməyi rəngli iplərlə hörmə üsulu ilə işlənmiş, yuxarı və aşağı hissələrdə isə qara rəngli "su"larla tamamlanmışdır. Xalçanın rəng tərtibatında on bir rəngdən istifadə edilmişdir. Xalça zəngin rəng palitrasına malikdir. Sürməyi yerli ara sahə mərkəzində kənarları qarmaqlı qırmızı-sarı rəngli romb formalı element yerləşir ki, bu da çox güman ki, günəşi simvolizə edir. Gölün ətrafında stilizə edilmiş ön görünüşlü nəbati naxışlar üfüqi istiqamətdə bir-birinin arxasınca düzülən yangörünüşlü, qırmızı başlı stilizə edilmiş xoruz rəsmləri və xalçanın ara sahəsinin yuxarı və aşağı hissəsində çox güman ki, xovsuz xalçalardan olan damalı şəddəni əks etdirən düzbucaq formalı elementlər yerləşdirilmişdir. İrəvan qrupunun xalçalarının əsas xarakterik xüsusiyyətləri kontrast rəng tərtibatıdır. Kontraslıq xalçada işlədilən bəzək elementlərinin daha aydın və ifadəli görünməsinə imkan yaradır. Bu xalçanın enli ana haşiyəsində böyük ölçülü qırmızı, abı rəngli nəbati motivlər və dörd yarpaqdan qurulan enli haşiyə bəzəyinin aydın gözə çarpmasının səbəbi də onların açıq sarı fonda ritmik təkrarından ibarətdir. "Mollabaşı" və "cağ" adlanan bala haşiyələrin də rəng tərtibatı pozitiv, neqativ ya da qab-qabı adlanan üsuldan istifadə edilərək verilmişdir. Diqqətlə nəzər yetirsək, bu təkrar olunan elementlərin yerliyi digər elementin onun içərisinə daxil olması ilə yaranır. Yuxarıda dediyimiz kimi belə naxışlara qab-qabı naxışı deyilir.

---

**(111) 016/01**
**(151) 29.05.2015**
**(210) C 2015 0004**
**(220) 31.03.2015**
**(181) 31.03.2025**
**(730) Muradov Vidadi Aydın oğlu, Bakı şəh., Nərimanov rayonu, Şəmsi Rəhimov küçəsi 2 (AZ)**
**(540)**



**(511) 27** - xalçalar.
**(591)** qırmızı, yaşıl, mavi, göy, ağ, bej
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Azərbaycanın tarixi ərazisi olan Zəngəzur Qərbi Azərbaycanın (indiki Ermənistan) cənub-şərqini, Goyçə gölünün cənubunu, Azərbaycan Respublikasının cənub-qərbini əhatə edir. Zəngəzur bölgəsi şərqdən Qarabağ, qərbdən Naxçıvan, cənubdan Arazla əhatələnmişdir.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Bu bədii kompozisiya, elementlərin bu qaydada düzülüşü və nisbəti, hətta kəmiyyəti, ara sahənin uzunsov forması, burada yerləşən stilizə olunmuş elementlərin say nisbəti, rəng seçimi, məhz "Zəngəzur" xalçası üçün səciyyəvidir. Rənglərdə kontraslıq, lakin bu kontranslıqdan doğan harmoniya bu xalçanı bənzərsiz edir.
“Zəngəzur” xalçası - coğrafi göstərici kimi (əmtəənin mənşə yerinin adı) mühafizə olunan, təbii boyalardan, həmin ərazidə əldə edilən ipliklərlərdən istifadə edilməklə, əllə toxunan zəngin rəng palitrasına malik olan xalçadır.
“Zəngəzur” xalçası – təbii yundan və təbii boyalardan istifadə edilərək toxunmuşdur.
“Zəngəzur” xalçasının ümumi təsviri: Təqdim olunan xalça H.1230-cu ildə (1809) Zəngəzur mahalında toxunmuşdur. Ölçüsü 180x112-dir. Xalçanın tünd-qırmızı yerlikli ara sahəsinin yuxarı hissəsində, sürməyi rəngli medalyonun altında iki hissədə h. 1230 tarixi vardır. Xalçanın ara sahəsində iki sürməyi və bir mavi rəngli medalyon vardır. Yuxarı hissədəki və mərkəzdəki medalyonların içərisində dördbucaqlı formaya malik torvari görünüşlü tünd qırmızı, şəkəri və göy rənglərlə tərtib edilmiş kvadratşəkilli motivlər işlənmişdir. Medalyonların kənarları ağ rəngli “su”larla tamamlanır. Ara sahənin boşluqları üçbucaqlı, rombvari elementlərlə doldurulmuşdur. Bu elementlər mavi, şəkəri rənglərlə işlənmişdir. Ara sahənin yuxarı və aşağı hissəsində mavi rənglə işlənmiş mərkəzi hissəsi çıxıntılı element vardır. Bu elementin kənarları sarı “su”larla əhatə olunmuşdur. Xalçanın yaşıl yerlikli enli haşiyəsi tünd qırmızı rəngli səkkizləçəkli güllərlə bəzədilmişdir. Güllərin içərisində sürməyi, sarı, ağ, mavi rəngli səkkizguşəli ulduzabənzər, aşağı hissədə isə dördbucaqlı, kənarları çıxıntılı motivlər işlənilmişdir. Haşiyə daxildən ağ, tünd qırmızı rəngli diliklərlə, xaricdən isə qırmızı zolaqlarla əhatə olunub. Qırmızı rəngli zolaq daxildən sarı rənglə işlənmiş “su”lar, xaricdən isə ağ, qırmızı rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Diliklərin kənarları isə qəhvəyi, qırmızı rəngli “su”larla tamamlanır. Xalçanın nisbətən ensiz haşiyəsi qəhvəyi və ağ rəngli qarmaqlı elementlərlə bəzədilmişdir. Qarmaqlı elementlərin kənarlarında qırmızı rəngli gəzmələr vardır. Haşiyəni göy, qırmızı rənglərlə işlənmiş dilikli mədaxillər əhatə edir. Mədaxillər qırmızı, sarı kvadratşəkilli motivlər və qırıq-qırıq xətlərlə əhatə olunub. Xalçanın kənarları ənənəvi olaraq qırmızı, göy rənglərlə dolama üsulu ilə işlənmişdir. Bu xalçada qırmızı yerli uzunsov ara sahə ölçü cəhətdən xalçanın üzərində üç dəfə yerləşir. Bu ona dəlalət edir ki, bu bölgədə istər haşiyə, istərsə də ara sahə ümumi kompozisiyanın daha aydın gözə çarpmasına işləyir. Kompozisiyada hər şey birinci dərəcəlidir. Bundan əlavə bu xalçada ilmə sıxlığı az, ilmə hündürlüyü çox olsa belə yenə də ümumi informasiya; yəni ritmik təkrar, dinamiklik özünü daha qabarıq göstərir. Elementlərin ölçüsü daha böyükdür. Elementlər həddən artıq stilizə edilir və ilk görkəmini dəyişir. Məsələn, qırmızı yerli ara sahədə qeyri-müəyyən formaya malik (uçan quşa bənzəyir) üç göl yerləşmişdir. Göllərin rəngi sürməyi və abıdır. Ara sahənin aşağı və yuxarı hissəsində tam sxematik formaya malik mehrabın olması xalçanın namaz üçün toxunduğuna dəlalət edir. Ara sahəni yaşıl rəngli fonda ritmik təkrar edilən həndəsiləşmiş səkkizləçəkli qırmızı çiçəklərin ritmik təkrarından yaranan enli haşiyə əhatə edir. Qəhvəyi, ağ yerlikli mədaxillər və bala haşiyələr dolanqaç və dilik naxışları ilə bəzənmişdir. Nəticə etibarı ilə, bu xalçanın kompozisiyası sadə olsa da elementlərin düzülüşündə səliqə-sahman və lokanikli hökm sürür. İstər ana haşiyə, istərsə də mədaxil və bala haşiyələr ritmik təkrar olduğu üçün daha qabarıq və dinamik görünürlər.

________

**(111) 017/01**
**(151) 14.10.2015**
**(210) C 2010 0001**
**(220) 30.12.2010**
**(181) 30.12.2020**
**(730) Consorzio del Formaggio ’Parmigiano-Reggiano", Via Kennedy, 18 Reggio Emilia, Italy (İT)**
**(540)**

# PARMIGIANO REGGIANO

**(511) 29** –pendir.
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Boloniya əyalətinin əraziləri, Reno çayının sol sahili, Mantuya, Po çayının sağ sahili, Modena, Parma və Reco Emiliya.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
"PARMIGIANO REGGIANO" pendiri - İsti işləmədən keçmiş və asta-asta yetişmiş bərk xəmirli, fermentasiya ilə şərtlənmiş turşu laxtasında saxlanılmış, əsas yeməyi çəmən otları və yonca olan heyvanların mövsümi laktasiya dövründə alınmış inək südündən alınmış yarı-yağlı pendir.
"PARMIGIANO REGGIANO" pendiri - səhər və axşam sağımından əldə olunmuş, durudulmuş və qaymağı qismən çıxarılmış süd istifadə olunmalıdır. Pendir 1 apreldən 11 noyabra qədər istehsal olunur. Süd buzov qursağının fermenti ilə çürüdülür. Fermentləri yubadan maddələrdən istifadə edilməsinə icazə verilmir. Bir neçə gündən duzlama yerinə yetirilir və məhsul 20-30 gün duzda qalır.
"PARMIGIANO REGGIANO" pendiri aşağıdakı göstəricilərə uyğun olmalıdlr:
Forması: azacıq qabarmış silindr və demək olar ki, düz yan səthi olan, yüngül xətli yastı horizontal səthli;
Ölçüləri: diametri 35 sm-dən 45 sm-ə qədər, yan səthinin hündürlüyü-18 sm-dən 24 sm-ə qədər;
Kəllənin minimum kütləsi: 24 kq;
Xarici bəzəmə: qara rəng və yağla örtülü;
Pendir xəmirinin rəngi: zəif açıq sarıdan açıq sarıya qədər;
Pendir xəmirinin səciyyəvi iyi və dadı: ətirli, zərif, xoş dadlıdır, amma tünd (kəskin) deyil;
Pendir xəmirinin strukturu: xırda dənəli pullu yarıqları var; dəliklər çox xırdadır, güclə görünür;
Qabığın qalınlığı: təxminən 6 mm;
Quru maddədə yağın miqdarı: ən azı 32%.

---

# Vayxır

**(511) 32** - mineral su.
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Azərbaycanın Naxçıvan MR Naxçıvan-Şahbuz avtomagistral yolunun 13-cü kilometrliyində, sağ tərəfdə yerləşən, Culfa rayonunun qərbində, Kəngərli rayonunun şərqində yerləşən Babək rayonunun, Vayxır kəndinin şimal bölgəsində 1.5 kilometr məsafədə yerləşir.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
"Vayxır mineral suyu"– coğrafi göstərici (əmtəənin mənşə yerinin adı) kimi mühafizə olunan mineral su mədə-bağırsaq xəstəlikləri (ezofaqit, qastrit, duodenit, kolit), qaraciyər, öd, öd yolları, mədəaltı vəzi xəstəlikləri, böyrək, böyrək daşı, sidik kisəsi, sidik yolları xəstəlikləri və maddələr mübadiləsi pozğunluğu xəstəliklərinin müalicəsi xüsusiyyətlərinə malikdir.
"Vayxır mineral suyu"– bulaq şəklində yer səthinə çıxan sudur.
"Vayxır mineral suyu"– şəffaf, rəngsiz, iysiz, zəif turş dada malik, orta dərəcədə minerallaşmış, xlor ionlu olması ilə xarakterizə olunur. Vayxır mineral suyunun smotik qatılığı insanın qan plazmasının qatılığına uyğun gəldiyi üçün, bu sudan qan dövranının tənzimlənməsində istifadə edilir.
"Vayxır mineral suyu"– nun kimyəvi tərkibi aşağıdakı göstəricilərə uyğundur:
1 litr suda:

| | |
|---|---|
| PH | - 6.288 |
| Codluq | - 14,2 |
| Qələvilik dərəcəsi (mq) ekv. | - 17,92; 6,4 mq/ekv |
| Ca | - 86 mq/l |
| Mg | - 25,536 mq/l |
| $HCO_3$ | - 8662 mq/l |
| Fl | - 0,1 mq/l |
| Karbonat dərəcəsi | - 37,76 mq/ekv |
| Cl | - 10,9 mq/l |

---

**(111) 018/01**
**(151) 26.07.2016**
**(210) C 2016 0002**
**(220) 02.03.2016**
**(181) 02.03.2026**
**(730) "Gəmiqaya Mineral Sular" MMC**
**Naxçıvan MR, Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi (AZ)**
**(540)**

**(111) 019/01**
**(151) 14.03.2017**
**(210) C 2016 0003**
**(220) 26.07.2016**
**(181) 26.07.2026**
**(730) "CAHANGİR-T" FİRMASI**
**AZ1009, Bakı şəhəri, Yasamal r-nu, Cəfər Cabbarlı küç., ev 20/67, m. 28 (AZ)**
**(540) "Yalxı ispirək" kəlağayısı**



**(511) 25** - kəlağayı.
**(591)** mixəyi, ağ, narıncı
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Basqal İsmayıllı rayonunda dəniz səviyyəsindən 998 metr hündürlükdə yerləşən qəsəbədir. Tarixi məlumatlar göstərir ki, Azərbaycanda baramaçılığın tarixi 2000 ildən çoxdur. Basqal coğrafi mövqeyinə görə aşağıdakı koordinatlara malikdir:
40° 45` 20´ N, 48° 23` 47 E.
Coğrafi obyektin hüdudları aşağıdakı xəritə ilə dəstəklənir:






**“Yalxı ispirək” kəlağayısının xammal bazasının mövcud sahələri:**
Kəlağayının toxunması üçün istifadə edilən xammal təbii ipək qurdundan əldə edilmiş ipək liflərdən toxunmuş kəlağayı ipəyi adlanan ipək növüdür.
“Yalxı ispirək” kəlağayısının boyadılması üçün ənənəvi olaraq sarağan ağacından istifadə olunur. Bunun üçün ağacın 3-8 sm diametrdə olan budaqları seçilir, 60-70 sm uzunluğunda kəsilir, “zindan” adlanan 25-30 sm hündürlüyü olan dördkünc, 20x20 sm ölçüdə olan xalis poladdan hazırlanmış sütunun üstündə çəkic ilə döyülür. Əzilmiş budaqlar fındıq ağacının cavan zoğları vasitəsilə dəstəyə toplanır. Belə dəstə suda qaynadılır və nəticədə narıncı rəngli boya alınır. Qırmızı rəngi almaq üçün boyaqçı ustalar öz bildikləri təbii və ya kimyəvi məhlulları işlədirlər. Ənənəyə uyğun olaraq Basqal və Basqalın ətrafından yığılmış bitkilərdən istifadə olunur.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
“Yalxı ispirək” kəlağayısının naxışlanması ənənəvidir və müəyyən quruluşa malik olaraq onun özünəməxsus bədii kompozisiyasını təşkil edir. El arasında “Basqal” adlandırılan bu kompozisiya Şirvan regionu üçün səciyyəvidir. “Yalxı ispirək” kəlağayısının rənglər kompozisiyası 3 rəngdən ibarətdir: 1 – sarı (açıq sarıdan tünd sariya, narınciya qədər) – naxışların rəngi, 2 – şabalıd (tünd şabalıddan – qaraya qədər) – zəminin rəngi, 3 – ağ (qondurma) adi dairə - naxışların üzərinə vurulur. Usta özünün və ya sifarişçinin istəyinə görə qondurmanı abı kölgəsilə də vura bilər. Bu halda işlənən rənglərin sayı 4 olur.
“Yalxı ispirək” kəlağayısı qədimdən bəri “kəlağayı ipəyi” adlanan təbii ipək növündən istifadə olunmaqla sıxlığı çox aşağı, yəni 28-30 nms olan, 2-3 ipək lifindən ibarət eşilmiş boyanmamış ipək iplik sapdan istifadə olunaraq toxunmuş, üzəri təbii boyalardan istifadə edilməklə “basmanaxış” üsulu ilə naxışlanmış, ölçüsü 140-160 sm olan məmulatdır.
“Yalxı ispirək” kəlağayısının ümumi təsviri:
Yalxı ispirək kəlağayısı ölçüsü 140x140, 150x150, 160x160 sm olan təbii ipəkdən toxunmuş, basma üsülu ilə naxışlanmış və müxtəlif rənglərə boyadılmış bütöv parçadan hazırlanır. Qıraqdan 4-5 sm məsafədə Dik haşiyə “Dəniz” qəlibi ilə qıraq haşiyə basılmışdır. Bu qəlibdə kəlağayının perimetri üzrə dalğavari naxış yaradılır. Naxışın yuxarı tərəfindən mərkəzə doğru 20-25 sm məsafədə “nar gülü” haşiyəsilə mədaxil (ara haşiyə) vurulmuşdur. Qıraq və mədaxil haşiyələri arasına hər tərəfdən “Həyat ağacı” Şah buta vurulub. Şah butanın ayağı dalğaların zirvə nöqtələri arasındakı məsafəyə sığışır. Butanın başı mədaxil haşiyəsinin ayağı ilə 1-3 sm təşkil edir. Mədaxil haşiyəsi ilə əhatə olunan daxili kvadrat məkanın düz mərkəzinə “Cənnət” göbək qəlibi ilə bütövlüklə “xonça” adlanan naxış vurulmuşdur. Xonçanı “Pullu qəlib” ilə vurulmuş naxış əhatə edir. Xonça

əmələgətirən göbək qəlibi mədaxilin içində tərəflərin kəsişməsində də təkrarlanır, boş olan yerlər isə sərbəst qaydada “Buta”, “Çiçək”, “Heyvagülü” və “Çobanyastığı” adlanan qəliblərə naxışlanmışdır. Naxışların rəngi tünd-sarıdır. Haşiyələrin üzərində 2 sm diametrində olan dairələr eyni məsafədə qondurulub. Eləcə də eyni qondurma pullu qəlibin, xonçanın və digər elementlərin (Şah butaların, butaların) üzərinə sərbəst qaydada vurulub. Çiçək, heyvagülü, çobanyastığı üzərinə basılmaqla, qondurma bu elementlərin mərkəzini vurğulayır.




---

**(111) 020/01**
**(151) 14.03.2017**
**(210) C 2016 0004**
**(220) 26.07.2016**
**(181) 26.07.2026**
**(730) "CAHANGİR-T" FİRMASI**
**AZ1009, Bakı şəhəri, Yasamal r-nu, Cəfər Cabbarlı küç., ev 20/67, m. 28 (AZ)**
**(540) “Duvağ”**



**(511) 25** - kəlağayı.
**(591)** qırmızı, ağ

**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Basqal İsmayıllı rayonunda dəniz səviyyəsindən 998 metr hündürlükdə yerləşən qəsəbədir. Basqal coğrafi mövqeyinə görə aşağıdakı koordinatlara malikdir:
40° 45` 20´ N, 48° 23` 47 E.
Coğrafi obyektin hüdudları aşağıdakı xəritə ilə dəstəklənir:






**“Duvağ” kəlağayısının xammal bazasının mövcud sahələri:**
Kəlağayının toxunması üçün istifadə edilən xammal təbii ipəkqurdundan əldə edilmiş ipək liflərdən toxunmuş kəlağayı ipəyi adlanan ipək növüdür.
“Duvağ” kəlağayısının boyadılması üçün ənənəvi olaraq sarağan ağacından istifadə olunur. Bunun üçün ağacın 3-8 sm diametrdə olan budaqları seçilir, 60-70 sm uzunluğunda kəsilir, “zindan” adlanan 25-30 sm hündürlüyü olan dördkünc, 20x20 sm ölçüdə olan xalis poladdan hazırlanmış sütunun üstündə çəkic ilə döyülür. Əzilmiş budaqlar fındıq ağacının cavan zoğları vasitəsilə dəstəyə toplanır. Belə dəstə suda qaynadılır və nəticədə narıncı rəngli boya alınır. Qırmızı rəngi almaq üçün boyaqçı ustalar öz bildikləri təbii və ya kimyəvi məhlulları işlədirlər. Ənənəyə uyğun olaraq Basqal və Basqalın ətrafından yığılmış bitkilərdən istifadə olunur.

**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
“Duvağ” kəlağayısı əlvan naxışlarla dolu olan digər Basqal kəlağayılarından fərqli olaraq yalnız bir rəngə, qırmızı rəngə boyanır. Onun sadə naxışlarla bəzədilməsi və elementlərin bu qaydada düzülüşü, rəng çaları yalnız “Duvağ” kəlağayısı üçün səciyyəvidir.
“Duvağ” kəlağayısı qədimdən bəri “kəlağayı ipəyi” adlanan təbii ipək növündən istifadə olunmaqla, sıxlığı çox aşağı, yəni 28-30 nms olan, 2-3 ipək lifindən ibarət eşilmiş, boyanmamış ipək iplik

sapdan istifadə olunaraq toxunmuş, üzəri təbii boyalardan istifadə edilməklə “basmanaxış” üsulu ilə naxışlanmış, ölçüsü 140-160 sm olan məmulatdır.

**“Duvağ” kəlağayısının ümumi təsviri:**

“Duvağ” kəlağayısı Basqal adətlərinə görə sırf gəlin üçün hazırlanır və qırmızı rəngə boyanırdı. Qıraqdan 4-5 sm məsafədə Dik haşiyə “Dağlarda günəş qəlibi ilə qıraq haşiyə basılmışdır. Bu qəliblə kəlağayının perimetri üzrə dağlar silsiləsi və onların arasından doğan günəş surəti yaradılır. Qıraq haşiyə ilə əhatə olunan kvadratın daxili künclərinə “Şah“ butası vurulmuşdur. “Duvağ” kə-lağayısının kompozisiyası sadədir. O, qıraq haşiyədən və bu haşiyə vasitəsilə əmələ gələn kvadrat sahənin içəri künclərinə basılmış müxtəlif cür buta, Şahbuta və məhdud sayda digər elementlərdən ibarətdir. Bu elementlər ustanın zövqünə və ya sifarişçinin istəyinə uyğun vurulur. Haşiyənin yaşıl rəngdə olmasına rast gəlmək olar.

**“Duvağ” kəlağayısının sxemi**:




**İstifadə olunan qəliblər**: Dik haşiyə-dağlarda günəş, Şah buta

---

**(111) 021/01**
**(151) 14.03.2017**
**(210) C 2016 0005**
**(220) 26.07.2016**
**(181) 26.07.2026**
**(730) "CAHANGİR-T" FİRMASI**
**AZ1009, Bakı şəhəri, Yasamal r-nu, Cəfər Cabbarlı küç., ev 20/67, m. 28 (AZ)**
**(540) “Heyratı”**



**(511) 25** - kəlağayı.
**(591)** qırmızı, mixeyi, ağ

**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**

Basqal İsmayıllı rayonunda dəniz səviyyəsindən 998 metr hündürlükdə yerləşən qəsəbədir. Basqal coğrafi mövqeyinə görə aşağıdakı koordinatlara malikdir:
40° 45` 20´ N, 48° 23` 47 E.
Coğrafi obyektin hüdudları aşağıdakı xəritə ilə dəstək-lənir:

**“Heyratı” kəlağayısının xammal bazasının mövcud sahələri:**

Kəlağayının toxunması üçün istifadə edilən xammal təbii ipək qurdundan əldə edilmiş ipək liflərdən toxunmuş kəlağayı ipəyi adlanan ipək növüdür.
“Heyratı” kəlağayısının boyadılması üçün ənənəvi olaraq sarağan ağacından istifadə olunur. Bunun üçün ağacın 3-8 sm diametrdə olan budaqları seçilir, 60-70 sm uzunluğunda kəsilir, “zindan” adlanan 25-30 sm hündürlüyü olan dördkünc, 20x20 sm ölçüdə olan xalis poladdan hazırlanmış sütunun üstündə çəkic ilə döyülür. Əzilmiş






budaqlar fındıq ağacının cavan zoğları vasitəsilə dəstəyə toplanır. Belə dəstə suda qaynadılır və nəticədə narıncı rəngli boya alınır. Qırmızı rəngi almaq üçün boyaqçı ustalar öz bildikləri təbii və ya kimyəvi məhlulları işlədirlər. Ənənəyə uyğun olaraq Basqal və Basqalın ətrafından yığılmış bitkilərdən istifadə olunur.

**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**

Heyratı kəlağayısının rənglər kompozisiyası 3 rəngdən ibarətdir: 1-qırmızı (al qırmızıdan tünd zoğalı rənginə qədər) - naxışların rəngi, 2-şabalıd (tünd-şabalıddan qaraya kimi)-zəminin rəngi, 3-ağ (qondurma) adi dairə- naxışların üzərinə vurulur. Usta özünün və ya sifarişçinin istəyinə görə qondurmanı abı kölgəsi ilə də vura bilər. Bu halda işlənən rənglərin sayı 4 olur. Heyratı kəlağayısının naxışlanması qaydası ənənəvidir və müəyyən quruluşa malik olmaqla özünəməxsus bədii kompozisiya yaradır.

**"Heyratı" kəlağayısı:** Qədimdən bəri "kəlağayı ipəyi" adlanan təbii ipək növündən istifadə olunmaqla sıxlığı cox aşağı, 28-30 nms olan, 2-3 ipək lifindən ibarət eşilmiş, boyanmamış ipək iplik sapdan istifadə olunaraq toxunmuş, üzəri təbii boyalardan istifadə edilməklə "basmanaxış üsulu ilə naxışlanmış, ölçüsü 140-160 sm olan məmulatdır.

**"Heyratı" kəlağayısının ümumi təsviri:** Qıraqdan 4-5 sm məsafədə Dik haşiyə "Dağlarda günəş" qəlibi ilə qıraq haşiyə basılmışdır. Bu qəliblə kəlağayının perimetri üzrə dağlar silsiləsi və onların arasından doğan günəş surəti yaradılır. Naxışın yuxarı tərəfindən mərkəzə doğru 20-25 sm məsafədə "dənizdə günəş" haşiyəsilə mədaxil (ara haşiyə) vurulmuşdur. Qıraq və mədaxil haşiyələri arasına hər tərəfdən "Həyat ağacı" Şah buta vurulub. Şah butanın ayağı dagların zirvə nöqtələri arasındakı məsafəyə sığışır. Butanın başı mədaxil haşiyəsinin ayağı ilə 1-3 sm təşkil edir. Mədaxil haşiyəsi ilə əhatə olunan daxili kvadrat məkanın düz mərkəzinə "Cənnət" göbək qəlibi ilə bütövlükdə "xonça" adlanan naxış vurulmuşdur. Xonçanı əmələgətirən göbək qəlibi mədaxilin içində tərəflərin kəsişməsində də təkrarlanır, boş olan yerlər isə sərbəst qaydada "Buta", "Heyvagülü" adlanan qəliblə naxışlanmışdır. Naxışların rəngi qırmızıdır. Haşiyələrin üzərinə 2 sm diametrində olan dairələr eyni məsafədə qondurulub. Eləcə də eyni qondurma xonçanın və diqər elementlərin (Şah butaların, butaların) üzərinə sərbəst qaydada vurulub. Heyvagülü naxışının üzərinə qondurma basılaraq, bu elementin mərkəzini vurğulayır.

**"Heyratı" kəlağayısının sxemi:**




**İstifadə olunan qəliblər**: Dik haşiyə-dağlarda günəş, Dənizdə günəş, Şah buta-həyat ağacı, Buta, Göbək (cənnət), Heyvagülü.

---

**(111) 022/01**
**(151) 14.03.2017**
**(210) C 2016 0006**
**(220) 26.07.2016**
**(181) 26.07.2026**
**(730) "CAHANGİR-T" FİRMASI**
**AZ1009, Bakı şəhəri, Yasamal r-nu, Cəfər Cabbarlı küç., ev 20/67, m. 28 (AZ)**
**(540) "7-rəng"**



**(511) 25** - kəlağayı.
**(591)** mixeyi, qırmızı, çəhrayi, abı, ağ, yaşıl, narıncı

**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Basqal İsmayıllı rayonunda dəniz səviyyəsindən 998 metr hündürlükdə yerləşən qəsəbədir. Basqal coğrafi mövqeyinə görə aşağıdakı koordinatlara malikdir:
40° 45` 20´ N, 48° 23` 47 E.
Coğrafi obyektin hüdudları aşağıdakı xəritə ilə dəstəklənir:






**“7 rəng” kəlağayısının xammal bazasının mövcud sahələri:**
Kəlağayının toxunması üçün istifadə edilən xammal təbii ipək qurdundan əldə edilmiş ipək liflərdən toxunmuş kəlağayı ipəyi adlanan ipək növüdür.
“7 rəng” kəlağayısının boyadılması üçün ənənəvi olaraq sarağan ağacından istifadə olunur. Bunun üçün ağacın 3-8 sm diametrdə olan budaqları seçilir, 60-70 sm uzunluğunda kəsilir, “zindan” adlanan 25-30 sm hündürlüyü olan dördkünc, 20x20 sm ölçüdə olan xalis poladdan hazırlanmış sütunun üstündə çəkic ilə döyülür. Əzilmiş budaqlar fındıq ağacının cavan zoğları vasitəsilə dəstəyə toplanır. Belə dəstə suda qaynadılır və nəticədə narıncı rəngli boya alınır. Qırmızı rəngi almaq üçün boyaqçı ustalar öz bildikləri təbii və ya kimyəvi məhlulları işlədirlər. Ənənəyə uyğun olaraq Basqal və Basqalın ətrafından yığılmış bitkilərdən istifadə olunur.
**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
**“7 rəng” kəlağayısının** rənglər kompozisiyası 7 rəngdən ibarətdir: **qırmızı** (al qırmızıdan tünd zoğalı rənginə qədər), **sarı** (açıq sarıdan tünd sarıya, narıncıya qədər), **abı, yaşıl**, **çəhrayı.** Bu naxışların rəngidir. **Şabalıd** rəngi (tünd şabalıddan– qaraya qədər) – zəminin rəngidir. **Ağ** rəngli naxış - adi dairə formasında olan qəlib ilə müxtəlif naxışların üzərinə vurulur (qondurma). 7 rəng kəlağayısında əgər yaşıl rəngdən istifadə edilməzsə onun digər variantı olan 6 rəngdən ibarət kəlağayı alınır. Hər iki variantda əsas naxışlar həm sarı ola bilər, həm də müxtəlif rəngli. Əsas naxışlar sarı olduqda, onların üzərinə müxtəlif rəngli qondurmalar vurulur və bununla rəngarəng, əlvan çəmən təsviri yaradılır. Müxtəlif rəngli naxışlar olduqda isə, onların üzərinə yalnız ağ rəngli qondurma vurulur. Naxışların bu cür düzülüşü və ornamentlərin yaratdığı kompozisiya yalnız “7 rəng” kəlağayısı üçün səciyyəvidir.
**“7 rəng” kəlağayısı:** Qədimdən bəri “kəlağayı ipəyi” adlanan təbii ipək növündən istifadə olunmaqla sıxlığı cox aşağı, 28-30 nms olan, 2-3 ipək lifindən ibarət eşilmiş, boyanmamış ipək iplik sapdan istifadə olunaraq toxunmuş, üzəri təbii boyalardan istifadə edilməklə “basmanaxış üsulu ilə naxışlanmış, ölçüsü 140-160 sm olan məmulatdır.
**“7 rəng” kəlağayısının ümumi təsviri:** Qıraqdan 4-5 sm məsafədə Dik haşiyə “Dağlarda günəş” qəlibi ilə qıraq haşiyə basılmışdır. Bu qəliblə kəlağayının perimetri üzrə dağlar silsiləsi və onların arasından doğan günəş surəti yaradılır. Naxışın yuxarı tərəfindən mərkəzə doğru 20 sm məsafədə “Çay” haşiyəsilə mədaxil (ara haşiyə) vurulmuşdur. Qıraq və mədaxil haşiyələri arasına hər tərəfdən Kiçik Şahbutası vurulub. Şah butanın ayağı dagların zirvə nöqtələri arasındakı haşiyə ilə əhatə olunan daxili kvadrat məkanın düz mərkəzinə “Xarıbülbül” göbək qəlibi ilə bütövlükdə “xonça” adlanan naxış və onu əhatə edən xonçaətrafı Pullu qəlib vasitəsilə naxış vurulmuşdur. Xonçaətrafı naxışı bir sıra butalar əhatə edir. Butaların arasında qırmızı rəngdə zoğlar vurulub. Onun ətrafına vurulmuş abı rəngində “Yarpaq” naxışı ilə mədaxilin içi bütövlənir. Xonçanı əmələgətirən göbək qəlibi mədaxilin içində tərəflərin kəsişməsində də təkrarlanır. Onun yarımgövs formasında olan tərəfi “Qədimi qoşabuta” naxışı ilə genişləndirilir və “Çobanyastığı” qəlibinin yarısı ölçüsündə naxış ilə tamamlanır. Mədaxilin küncləri arasında boş qalmış yerlərdə, “Çay” haşiyəsindən dərhal sonra “Mirvari” naxışı basılmışdır. Boş olan yerlər isə sərbəst qaydada “ Buta”, “Çiçək”, “Yarpaq” adlanan qəliblə naxışlanmışdır. Əsas naxışların – haşiyələrin, kiçik “Şahbuta”, “Göbək, “ Buta”, “Çiçək”, “Yarpaq” naxışlarının rəngi narıncıdır. Haşiyələrin üzərinə 2 sm diametrdə olan ağ rəngdə dairələr eyni məsafədə qondurulub. Onların bəzilərinin üzərinə çəhrayı, bəzilərinə isə yaşıl rəngli eyni qəliblə naxış vurulub. Eləcə də eyni qondurma xonçanın və diqər hər bir elementin üzərinə sərbəst qaydada vurulub.
**“7 rəng” kəlağayısının sxemi:**




**İstifadə olunan qəliblər**: Dik haşiyə-dağlarda günəş, Dənizdə günəş, kiçik Şahbutası, göbək “Xarıbülbül”, Buta, Yarpaq, Pullu qəlib, Qoşa buta, Cır alça, Nar gülü.

________

**(111) 023/01**
**(151) 14.03.2017**
**(210) C 2016 0007**
**(220) 26.07.2016**
**(181) 26.07.2026**
**(730) "CAHANGİR-T" FİRMASI**
**AZ1009, Bakı şəhəri, Yasamal r-nu, Cəfər Cabbarlı küç., ev 20/67, m. 28 (AZ)**
**(540) “Qoşa haşiyə” və ya “Abbasəli”**



**(511) 25** - kəlağayı.
**(591)** ağ, bənövşəyi

**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Basqal İsmayıllı rayonunda dəniz səviyyəsindən 998 metr hündürlükdə yerləşən qəsəbədir. Basqal coğrafi mövqeyinə görə aşağıdakı koordinatlara malikdir:
40° 45` 20´ N, 48° 23` 47 E.
Coğrafi obyektin hüdudları aşağıdakı xəritə ilə dəstəklənir:






**“Qoşa haşiyə” və ya “Abbasəli” kəlağayısının xammal bazasının mövcud sahələri:**
Kəlağayının toxunması üçün istifadə edilən xammal təbii ipəkqurdundan əldə edilmiş ipək liflərdən toxunmuş kəlağayı ipəyi adlanan ipək növüdür.
**“Qoşa haşiyə” və ya “Abbasəli”** kəlağayısının boyadılması üçün ənənəvi olaraq sarağan ağacından istifadə olunur. Bunun üçün ağacın 3-8 sm diametrdə olan budaqları seçilir, 60-70 sm uzunluğunda kəsilir, “zindan” adlanan 25-30 sm hündürlüyü olan dördkünc, 20x20 sm ölçüdə olan xalis poladdan hazırlanmış sütunun üstündə çəkic ilə döyülür. Əzilmiş budaqlar fındıq ağacının cavan zoğları vasitəsilə dəstəyə toplanır. Belə dəstə suda qaynadılır və nəticədə narıncı rəngli boya alınır. Qırmızı rəngi almaq üçün boyaqçı ustalar öz bildikləri təbii və ya kimyəvi məhlulları işlədirlər. Ənənəyə uyğun olaraq Basqal və Basqalın ətrafından yığılmış bitkilərdən istifadə olunur.

**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Qoşahaşiyə və ya Abbasəli kəlağayısı ənənələr əsasında naxışlanıb və onun “Şirvan” regionu üçün səciyyəvi olan kompozisiyası var. Qoşahaşiyə və ya Abasəli kəlağayısının rənglər kompozisiyası 2 rəngdən ibarətdir: 1-ağ-naxışların rəngi, 2-bənövşəyi-(bənövşəyidən zanbağıya qədər)-zəminin rəngi. Kəlağayının naxışlanması, ornamentlərin düzülüşü və bir-birinə nisbəti ancaq bu kəlağayı üçün səciyyəvidir.

**“Qoşa haşiyə” və ya “Abbasəli” kəlağayısı:**
Qədimdən bəri “kəlağayı ipəyi” adlanan təbii ipək növündən istifadə olunmaqla sıxlığı cox aşağı, 28-30 nms olan, 2-3 ipək lifindən ibarət eşilmiş, boyanmamış ipək iplik sapdan istifadə olunaraq toxunmuş, üzəri təbii boyalardan istifadə edilməklə “basmanaxış üsulu ilə naxışlanmış, ölçüsü 140-160 sm olan məmulatdır.

**“Qoşa haşiyə” və ya “Abbasəli” kəlağayısının ümumi təsviri:** Qıraqdan 4-5 sm məsafədə Dik haşiyə “Dağlarda günəş” qəlibi ilə adi qaydada qıraq haşiyə basılmışdır. Lakin digər kəlağayılardan fərqli olaraq, eyni qəlib onunla başbaşa vurularaq vəhdət yaradır, bununla belə kəlağayının perimetri üzrə romblardan ibarət enli haşiyə əmələ gəlir. Rombların içinə hər hansı dairəvi formalı naxış vurulur. Mədaxil (ara haşiyə) də vurulur, amma qıraq qoşahaşiyə və mərkəzə doğru məsafədə yerləşdirilmiş müxtəlif elementlərə qarışır. Künc elementi kimi işlənmiş göbək də digər elementlərlə qarışır. Buna görə göbəyi vurğulamaq üçün onun gövsvari tərəfinə bir neçə orta ölçülü qəliblə naxış vurulmuşdur. Mədaxil

haşiyəsi ilə əhatə olunan daxili kvadrat məkanın düz mərkəzinə "Xarıbülbül "göbək qəlibi ilə bütövlükdə "xonça" adlanan naxış vurulmuşdur. Xonçanı yarımgövs orta ölçülü naxış əhatə edir. Xonçanı əmələgətirən göbək qəlibi mədaxilin içində tərəflərin kəsişməsində də təkrarlanır, boş olan yerlər isə sərbəst qaydada " Buta", "Çiçək", və "Yarpaq" adlanan qəliblərlə naxışlanmışdır. Naxışların rəngi ağdır. Zəminin rəngi isə açıq-zanbağı, bənövşəyi rəngdədir.

**Qoşahaşiyə" və ya "Abbasəli" kəlağayısının sxemi**




**İstifadə olunan qəliblər**: Çəməndə buta, Dik haşiyə-dağlarda günəş, Çobanyastığı qəlibi, Pullu qəlib, Çiçək qəlib, göbək "Xarıbülbül", Buta və s.

---

**(111) 024/01**
**(151) 15.03.2018**
**(210) C 2017 0003**
**(220) 07.07.2017**
**(181) 07.07.2027**
**(730) Azərbaycan Milli Kulinariya Assosiasiyası İB, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev 4, mən. 91 (AZ)**
**(540)**

# LƏNKƏRAN

**(511) 29**- limon dolması.

**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Lənkəran rayonunun sərhədləri daxilində yayılmışdır. Lənkəran rayonu Azərbaycanın cənub-şərqində, onlarca kilometr məsafəyə uzanıb gedən Lənkəran ovalığında yerləşir. Lənkəran Azərbaycan Respublikası daxilində mövcud olan beş təbii coğrafi vilayətdən biridir. Lənkəranın ərazisi 38°24-39°24 şimal və 47°58 şərq coğrafi en dairəsində yerləşir, şimaldan Kür-Araz ovalığı, şərq və cənub-.şərqdə Xəzər dənizi ilə hüdudlanmışdır. İnzibati baxımdan Lənkəran Astara, Masallı, Lerik inzibati rayonları ilə əhatə olunmuşdur.



**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Limon dolmasının xüsusiyyətləri istifadə olunan ərzaqlar, xörəyin yerli əhali tərəfindən keçmiş zamanlardan bişirilməsi, hazırlanma texnikası və hansı qaydada süfrəyə verilməsi kimi xarakterizə edilir. Lənkəran limon dolmasında istifadə olunan ərzaqlar ət, limon və ya limon qurusu, kərə yağı, zəfəran, sarımsaq, duz, istiotdur.
Lənkəran limon dolmasının hazırlanmasında bölgədə yetişdirilən limondan istifadə olunur. Lənkəran limonu tərkibində suyun miqdarının çox, qabığının isə incə, elastik olması digər bölgələrdə yetişdirilən limonlardan fərqlənir. Limon qabığına acılıq verən gesperidin qlükozidi Lənkəran limonunun tərkibində olduqca azdır.
Xörək gil qazanda (çölməkdə) hazırlanır. Limon dolması qalaylanmış mis qazanda da hazırlana bilər. Dolmaların əzilməməsi üçün daha geniş qazana üstünlük verilməlidir. Ətin xırdalanması üçün istifadə olunan qiyməkeş poladdan hazırlanır və ət əsasən ağac oduncağının (qoz və tut ağacı) üzərində xırdalanır. Bu da ətə xüsusi dad verir.
Lənkəran limon dolmasının bişirmə ənənəsi nəsildən-nəsilə keçərək, yerli əhali tərəfindən hazırlanır.
Limon dolmasının hazırlanma texnologiyası aşağıdakı kimidir:
Soğanın qabığı təmizlənir, zəfəran isti su ilə dəmlənir, zəfəran məhlulu hazırlanır. Limon isti suda saxlanılır, yumşaldıqdan sonra içərisi təmizlənir, yağda pörtlədilir. Təzə limon istifadə etdikdə isə, limonun içərisi təmizləndikdən sonra şəkər tozu ilə qaynadılır.
Ət, soğan, sarımsaqla birlikdə qiyməkeşlə döyülür və ya ətçəkən maşınında çəkilir. Duz, istiot, zəfəran məhlulu əlavə olunur və yağda qızardılır. Hazır içlik təmizlənmiş limonların içərisinə doldurularaq dərin tavaya yığılır. Üzərinə işgənə (ət suyu) əlavə olunaraq, 40 dəqiqə ərzində bişirilir. Hazır limonlar əzilməməli,

limonda acılıq hiss olunmamalıdır. Dolmaların rənginin saxlanılması və dağılmaması məqsədilə üzərinə boşqab qoyula bilər.

---

**(111) 025/01**
**(151) 15.03.2018**
**(210) C 2017 0004**
**(220) 07.07.2017**
**(181) 07.07.2027**
**(730) Azərbaycan Milli Kulinariya Assosiasiyası İB, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev 4, mən. 91 (AZ)**
**(540)**

# QAX

**(511) 29-** quru dolma.

**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Azərbaycan Respublikasının inzibati-ərazi vahidi Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində yerləşir. Rayonun ərazisi Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində yerləşir. Rayon şimal-şərqdən Dağıstan Respublikası, qərbdən Gürcüstan, şimalda Zaqatala rayonu, cənubda Şəki şəhəri, cənub-qərbdən isə Yevlax və Samux rayonları ilə həmsərhəddir.



**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**

Quru dolmanın xüsusiyyətləri istifadə olunan ərzaqlar, xörəyin yerli əhali tərəfindən keçmiş zamanlardan bişirilməsi, hazırlanma texnikası və süfrəyə verilməsi kimi xarakterizə edilir. Qax quru dolmasında istifadə olunan ərzaqlar ət, bağırsaq, soğan, turşu, ədviyyatlar, duz, istiotdur. Ətin xırdalanması üçün istifadə olunan qiyməkeş poladdan hazırlanır və ət əsasən ağac oduncağının (qoz və tut ağacı) üzərində xırdalanır. Bu da ətə xüsusi dad verir.
Quru dolmanın hazırlanma texnologiyası aşağıdakı kimidir:
Soğan təmizlənir, yuyulur və xırdalanır. Ət və soğan qiyməkeşlə xırdlanır və ya ətçəkən maşınından çəkilir. Qiyməyə ədviyyatlar, duz, istiot, turşu vurulur. Bütün bu ərzaqlar tam qarışdırılır. Xüsusi olaraq hazırlanmış qiymə malın bağırsağına doldurulur və qurumağa asılır. Qaxacı yalnız soyuq vaxtlarda hazırlayırlar ki, ət xarab olmasın. Külək və ayaz əti yaxşı qurudur. Qış boyunca dolmadan ləzzətli xəmir xörəkləri-sürfüllü, xəngəl, və s. bişiriləndə istifadə edirlər.

---

**(111) 026/01**
**(151) 15.03.2018**
**(210) C 2017 0005**
**(220) 07.07.2017**
**(181) 07.07.2027**
**(730) Azərbaycan Milli Kulinariya Assosiasiyası İB, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev 4, mən. 91 (AZ)**
**(540)**

# BAKI

**(511) 29-** ağ şanı dolması.

**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Bakı şəhəri və Bakıətrafı kəndlər. Bakı Azərbaycan Respubikasının paytaxtıdır. Abşeron yarımadasında, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 2130 km², əhalisi təqribən 2,3 milyon nəfərdir. Bakı şəhərinin tərkibinə 12 inzibati rayon, 5 şəhərtipli qəsəbə və 32 kənd daxildir.

**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Ağ şanı dolmasının səciyyəvi xüsusiyyətləri istifadə olunan ərzaqlar, xüsusən də ağ şanı yarpağının səciyyəvi xüsusiyyəti, istifadə olunan ərzaqların bir-birinə nəzərən məxsusi dad yaratması xörəyin yerli əhali tərəfindən həm məclislərdə, el şənliklərində, həm də gündəlik həyatda keçmiş zamanlardan bişirilməsi, hazırlanma texnikası və süfrəyə verilməsi kimi xarakterizə edilir. Bakı ağ şanı dolmasının hazırlanmasında ət, quyruq, üzüm yarpağı, soğan, yumru düyü, nanə qurusu, keşniş, şüyüd, duz, istiot istifadə olunur. Dolmanın hazırlanması üçün təzə və ya konservləşdirilmiş ağ şanı

yarpaqlarından istifadə olunur. Ağ şanı Abşeron yarımadasına məxsus Azərbaycanın ən qədim, qiymətli yerli, süfrə üzüm sortudur. Ağ şanı yarpaqlarının yumşaq, açıq rəngli, səthinin hamar, tüksüz olması birbaşa hazır dolmanın dad və görünüş xüsusiyyətlərinə təsir edir. Yarpağın yumşaqlığı dolmanın bükülməsi prosesini də sadələşdirir, belə ki, bükülmə zamanı yarpaqlar zədələnmir və bişdikdən sonra yarpaqlar yumşaqlığını saxlayır. Ağ şanı yarpağından istifadə olunması estetik baxımdan dolmaya gözəl və iştahaçan görünüş qazandırır, həmçinin dolmanın dadına da təsir göstərir. Bakı ağ şanı dolmasının hazırlanmasında istifadə olunan ləvazimatlar da çox önəmlidir. Dolma daş, saxsı (gil) qazanda və ya qalaylanmış mis qazanda hazırlanmalıdır. Bişən zaman dolmaların əzilməməsi üçün daha geniş qazana üstünlük verilməlidir. Ətin xırdalanması üçün istifadə olunan qiyməkeş poladdan hazırlanır və ət əsasən ağac oduncağının (qoz və ya tut) üzərində xırdalanır. Bu da ətə xüsusi dad verir.

**Ağ şanı dolmasının hazırlanma texnologiyası aşağıdakı kimidir:**

Soğan təmizlənir. Keşniş, şüyüd suda yuyulub təmizlənir və doğranılır. Yumru düyü təmizlənir (arıtlanır), yuyulur. Yuxarıda qeyd etdiyimiz kimi, üzüm yarpağı təzə və konservləşdirilmiş halda istifadə oluna bilər. İlkin variantda, təzə üzüm yarpaqları yığılır, duzlu, qaynar suda rəngi saralana qədər pörtlədilir. Əgər konservləşdirilmiş yarpaq istifadə olunarsa, yarpaqlar 3-5 dəqiqə müddətində isti suda yuyulur. Bu zaman bütün yarpaqların tam yuyulmasına diqqət yetirmək lazımdır. Yarpaq bağlamalar şəklində bankalara yığıldığından onların hər biri açılaraq, yaxşıca yuyulur.

Qoyun əti, quyruq və baş soğan qiyməkeşlə qiymələnir (döyülür) və ya ətçəkən maşından çəkilir. Xırdalanmış ət, quyruq və soğan qarışığına doğranmış göyərtilər, düyü, duz (duzlu yarpaq istifadə olunduğu halda, içliyə duz əlavə olunmur), istiot əlavə olunaraq, tam qarışdırılır.

Hazır yarpaqlar açılır, saplaqları kəsilir. Hər yarpağın iç tərəfinin mərkəzinə müəyyən miqdarda qiymədən hazırlanmış küftəcik qoyulur, yarpağın kənarları küftəciyin üzərini örtəcək şəkildə içəriyə tərəf bükülür və əksinə çevrilərək (qatlanmış yarpaqlar aşağı tərəfdə olmaq şərti ilə) qaba düzülür. Bakı ağ şanı dolmasını digər dolmalardan fərqləndirən xüsusiyyətlərindən biri də dolmanın yumru və kiçik ölçüdə bükülməsidir.

Yerli əhali arasında dolmaların sapa düzülməsi ənənəsi də geniş yayılmışdır. Bu məqsədlə, təmiz iynə saplanır, ucu düyünlənir, dolmanın mərkəzindən (yarpaqların uclarının qatlandığı tərəfdən) iynə keçirilir və sapa düzülür. Sapın ucları birləşdirilir və halqa formasına gətirilir. Halqanın ölçüsü istəkdən asılı olaraq, dəyişə bilər. Dolmaların sapa düzülməsi dolmanın boşqablara çəkilməsini asanlaşdırır.

Dolma düzülmüş saplar qazana yığılır, istəkdən asılı olaraq üzərinə çıxacaq qədər işgənə (yarıbişmiş yağlı ətin, toyuğun suyu (bulyon)) və ya su əlavə oluna bilər. Xörəyin işgənə ilə hazırlanması onun daha ləzzətli olmasına birbaşa təsir edir. Dolmaların rənginin saxlanılması və dağılmaması məqsədilə üzərinə boşqab (alt hissəsi yuxarı olmaq şərti ilə) və ya qapaq qoyulur. Dolma qaynayana qədər gur odda, qaynadıqda vam oda qoyulur və yağa düşənə qədər bişirilir. Xörəyin işgənəsi tam çəkilməlidir. Hazır dolmanın içliyi və yarpağı yumşaq olmalı, yaxşı bişməlidir. Dolmalar zədələnməməli, yarpaq içlikdən ayrılmamalıdır.

---

**(111) 027/01**
**(151) 15.03.2018**
**(210) C 2017 0006**
**(220) 07.07.2017**
**(181) 07.07.2027**
**(730) Azərbaycan Milli Kulinariya Assosiasiyası İB, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev 4, mən. 91 (AZ)**
**(540)**

# ABŞERON

**(511) 29**- zeytun dolması.
**Əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi göstəricinin hüdudları:**
Abşeron rayonu şimaldan Sumqayıt şəhəri ilə, şimali-qərbdən Xızı rayonu ilə, qərbdən Qobustan rayonu ilə, cənubi- qərbdən Hacıqabul rayonu ilə, şərqdən isə Bakı şəhəri ilə qonşudur.



**Əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrinin təsviri:**
Zeytun dolmasının səciyyəvi xüsusiyyətləri istifadə olunan ərzaqlar, xörəyin yerli əhali tərəfindən keçmiş zamanlardan bişirilməsi, hazırlanma texnikası və süfrəyə verilməsi kimi xarakterizə edilir. Abşeron zeytun dolmasında istifadə olunan ərzaqlar qoyun əti, zeytun, yağ, keşniş, şüyüd, duz, istiotdur. Dolmanın hazırlanmasında Abşeronda yetişdirilən yaşıl və qara zeytun sortlarından istifadə olunmalıdır. Hazır zeytun dolmaları xoşagələn estetik görünüşə malik olur. Abşeron zeytunlarının yüksək yağlılığa malik olması hazır dolmanın dadına da təsir göstərir. Dolma daş, saxsı (gil) qazanda və ya qalaylanmış mis qazanda hazırlanmalıdır. Bişən zaman dolmaların əzilməməsi üçün daha geniş qazana üstünlük verilməlidir. Ətin xırdalanması üçün istifadə olunan qiyməkeş poladdan hazırlanır və ət əsasən ağac oduncağının (qoz və ya tut) üzərində xırdalanır. Bu da ətə xüsusi dad verir.

**Zeytun dolmasının hazırlanma texnologiyası aşağıdakı kimidir:**

